| | |
|---|---|
| AKTIN NÖVÜ | Qanunlar |
| QƏBUL EDİLDİYİ TARİX | 11.06.1999 |
| QEYDİYYAT NÖMRƏSİ | 683-IQ |
| ADI | Nəqliyyat haqqında |
| RƏSMİ DƏRC EDİLDİYİ MƏNBƏ | Azərbaycan Respublikasının Qanunvericilik Toplusu (Dərc olunma tarixi: 31-07-1999, Nəşr nömrəsi: 07, Maddə nömrəsi: 399) |
| QÜVVƏYƏ MİNMƏ TARİXİ | |
| AZƏRBAYCAN RESPUBLİKASI VAHİD HÜQUQI TƏSNİFATI ÜZRƏ İNDEKS KODU | 180.000.000 |
| HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNİN QEYDİYYAT NÖMRƏSİ | |
| HÜQUQİ AKTIN HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİNƏ DAXİL EDİLDİYİ TARİX | 01.07.2011 |

**Nəqliyyat haqqında**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Bu Qanun nəqliyyatın fəaliyyətinin hüquqi, iqtisadi və təşkilati əsaslarını müəyyənləşdirir.

## I fəsil
## ÜMUMİ MÜDDƏALAR

### Maddə 1. Əsas anlayışlar

Bu Qanunun məqsədləri üçün istifadə olunan əsas anlayışlar aşağıdakılardır:

**"nəqliyyat"** - Azərbaycan Respublikasının ərazisində müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmış yüklərin və insanların daşınma vasitələridir, o cümlədən dəmir yolu, avtomobil, dəniz, daxili su, hava, şəhər və şəhərətrafı elektrik, metropoliten, həmçinin Azərbaycan Respublikasının ərazisində yerləşən magistral boru kəmərləri;

**"nəqliyyat müəssisəsi"** - qanunvericiliyə və öz təsis sənədlərinə uyğun fəaliyyət göstərən, yük, sərnişin, baqaj və poçt daşımaları, nəqliyyat vasitələrinin saxlanılması texniki xidmət və təmir, yükləmə-boşaltma və liman xidmətləri göstərən hüquqi şəxsdir.

**"daşıyıcı"** - *haqq müqabilində* sərnişin, baqaj, yük və poçt daşımaları üzrə xidmətləri göstərən, mülkiyyət icarə*və ya istifadə hüququ ilə* nəqliyyat vasitələrinə malik olan hüquqi və ya fiziki şəxsdir.[1]

**"Müştəri"** - yükgöndərən, yükalan sərnişin, icarəçi və sair kimi daşıyıcı ilə bağlanmış müqaviləyə uyğun nəqliyyatdan istifadə edən hüquqi və ya fiziki şəxsdir.

### Maddə 2. Nəqliyyat haqqında qanunvericilik

1. Nəqliyyatın fəaliyyəti ilə əlaqədar münasibətlər bu Qanunla nəqliyyat növləri üzrə məcəllələrlə və nizamnamələrlə, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları ilə tənzimlənir.
2. Magistral boru kəməri sahəsində münasibətlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə tənzimlənir.
3. Daşıma və yükaşırma şərtləri, nəqliyyat vasitələrindən istifadə qaydaları, nəqliyyatın hərəkətinin təhlükəsizliyinin təmin edilməsi, əmək mühafizəsi, yanğına qarşı təhlükəsizlik, texniki-texnoloji, ekoloji və sanitar normaların tələblərinə əməl olunması nəqliyyat münasibətlərinin bütün iştirakçıları üçün məcburi olan, müvafiq nəqliyyat növlərinin fəaliyyətini tənzimləyən normativ hüquqi aktlar, həmçinin tərəflərin razılığı (bağladıqları müqavilələr) ilə müəyyən edilir.
4. Əgər Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrdə bu Qanunda olanlardan fərqli qaydalar müəyyən edilmişdirsə, həmin müqavilələrin qaydaları tətbiq edilir.

### Maddə 3. Nəqliyyat sahəsində mülkiyyət münasibətləri

Azərbaycan Respublikasında nəqliyyat dövlət, xüsusi və bələdiyyə mülkiyyət növlərinə əsaslanır.

Bütün nəqliyyat mülkiyyətçiləri bərabər hüquqa malikdirlər və qanunla eyni cür müdafiə olunurlar.

Ümumi istifadədə olan və dövlət əhəmiyyəti kəsb edən dəmir yolları və onların mühəndis tikililəri və qurğuları, magistral boru kəmərləri, mayaklar, gəmilərin təhlükəsiz hərəkətini nizamlayan və ona zəmanət verən qurğular və naviqasiya nişanları, hava hərəkətinin təşkili və idarə edilməsi sisteminin aeronaviqasiya vasitələri və avadanlığı, hava gəmilərinin uçuş təhlükəsizliyini təmin edən qurğular, aviasiya daşımaları ilə əlaqədar mühəndis şəbəkələri və qurğuları, həmçinin metropoliten dövlət mülkiyyətidir.

### Maddə 4. Nəqliyyat təyinatlı torpaqlar. Nəqliyyatın ehtiyacları üçün torpaq sahələrinin və su obyektlərinin verilməsi

1. Nəqliyyat təyinatlı torpaqlar aşağıdakılardır:

a) nəqliyyat obyektlərinin normal fəaliyyətinin təmin edilməsi üçün nəqliyyat müəssisələrinə verilən torpaq sahələri;

b) nəqliyyat yolları və magistral boru kəmərlərinin yerləşdiyi torpaq sahələri;

c) uçqun, sürüşmə, sel suları və digər təbii təsirlərin təhlükəsi olan yerlərdə nəqliyyat tikililərinin və digər nəqliyyat obyektlərinin xüsusi mühafizə zonaları üçün verilmiş torpaq sahələri.

2. Bu maddənin 1-ci bəndində göstərilmiş torpaq sahələrinin və ya su obyektlərinin müvafiq nəqliyyat müəssisələrinin mülkiyyətinə, icarəsinə və istifadəsinə verilməsi zamanı yaranan münasibətlər, həmin sahələrdən və obyektlərdən istifadə qaydaları müvafiq olaraq Azərbaycan Respublikasının Torpaq Məcəlləsi, Su Məcəlləsi, *"Ətraf mühitin mühafizəsi haqqında" və "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının qanunları* və digər normativ hüquqi aktları ilə tənzimlənir.[2]

3. Uçquna, sürüşməyə və digər təhlükəli təbii təsirlərə məruz qalmış ərazilərdə nəqliyyat tikililərinin və digər nəqliyyat obyektlərinin təhlükəsiz istismarını təmin etmək məqsədi ilə qanunvericilikdə müəyyən edilmiş qaydada xüsusi mühafizə zonaları müəyyənləşdirilə bilər.

## II fəsil
## NƏQLİYYAT SAHƏSİNDƏ DÖVLƏT TƏNZİMLƏNMƏSİ VƏ İDARƏETMƏSİ

### Maddə 5. Nəqliyyat sahəsində dövlət tənzimlənməsi

Nəqliyyat sahəsində dövlət tənzimlənməsi hüquqi təminat, vergiqoyma, maliyyələşdirmə, qiymətqoyma, investisiya və vahid elmi-texniki siyasətin həyata keçirilməsi ilə yerinə yetirilir.

Qanunvericilikdə nəzərdə tutulmuş hallar istisna olmaqla, dövlət və bələdiyyə orqanlarının nəqliyyat müəssisələrinin təsərrüfat fəaliyyətinə müdaxilə etmələrinə, həmçinin nəqliyyat müəssisələrinin istismar işçilərini başqa işlərə cəlb etmələrinə yol verilmir.

M a d d ə 6 . **Nəqliyyat sahəsində dövlət idarəetməsi**

Nəqliyyat sahəsində dövlət idarəetməsinin əsas vasitələri aşağıdakılardır:
- nəqliyyat sahəsində iqtisadi, investisiya, tarif və elmi-texniki siyasətin həyata keçirilməsi, nəqliyyatın ayrı-ayrı növlərinin inkişafına dair proqramların işlənib-hazırlanmasının və yerinə yetirilməsinin təşkili;
- nəqliyyat kompleksinin bazar iqtisadiyyatı münasibətlərinə keçidi ilə əlaqədar islahatların aparılmasına rəhbərlik;
- dövlət, o cümlədən müdafiə ehtiyaclarının, yük daşımalarına və digər nəqliyyat xidmətlərinə olan tələbatların proqnozlaşdırılması, onların təmin olunması üzrə nəqliyyat kompleksinin fəaliyyətinin təşkili və əlaqələndirilməsi;
- nəqliyyatda inhisar fəaliyyətinin məhdudlaşdırılması və rəqabətin inkişafı üzrə məqsədli tədbirlərin görülməsi, mülkiyyət formasından asılı olmayaraq bütün nəqliyyat müəssisələrinin təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün bərabər şəraitin təmin edilməsi;
- nəqliyyat kompleksinin təhlükəsiz, səmərəli və ahəngdar işinin təmin edilməsi üzrə dövlət tənzimlənməsinin həyata keçirilməsi;
- nəqliyyat kompleksinin, nəqliyyatın ayrı-ayrı növlərinin fəaliyyətinə dair normativlərin müəyyən edilməsi və təkmilləşdirilməsi;
- nəqliyyat məsələləri ilə əlaqədar dövlətin iqtisadi mənafelərinin, nəqliyyat müəssisələrinin və nəqliyyat istehlakçılarının qanuni mənafelərinin və hüquqlarının müdafiəsi;
- beynəlxalq nəqliyyat xidmətləri bazarında milli nəqliyyat kompleksinin fəaliyyətinin səmərəliliyinin və rəqabətə davamlılığının artırılması, xarici investisiyaların cəlb edilməsi;
- xarici ölkələrlə nəqliyyat sahəsində qarşılıqlı faydalı əməkdaşlığın möhkəmləndirilməsi və inkişafı.

*Bu maddənin birinci hissəsinin ikinci abzasında nəzərdə tutulan inkişaf proqramlarının layihələrinin "Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş qaydada strateji ekoloji qiymətləndirilməsi (SEQ) aparılır.*[3]

M a d d ə 7 . **Nəqliyyat sahəsində bələdiyyələrin hüquqları və vəzifələri**

Nəqliyyat sahəsində bələdiyyələrin hüquqları və vəzifələri bələdiyyələr haqqında qanunvericiliklə müəyyən edilir.

## I I I f ə s i l
## NƏQLİYYATIN FƏALİYYƏTİNİN ƏSASLARI

M a d d ə 8 . **Nəqliyyatda iqtisadi fəaliyyətin əsasları**

1. Nəqliyyatda iqtisadi münasibətlərin əsasını nəqliyyat xidmətlərinə tələb və təkliflər bazarı formalaşdırır.
2. Nəqliyyat müəssisələri və daşıyıcılar öz fəaliyyətlərini kommersiya və təsərrüfat prinsipləri əsasında həyata keçirirlər.
3. Nəqliyyat müəssisələri və daşıyıcılar nəqliyyat xidmətlərini və digər xidmətləri qanunvericiliyə uyğun bağlanmış müqavilələr əsasında həyata keçirirlər.
4. ~~Müvafiq dövlət orqanları, pulsuz gediş hüququ da daxil olmaqla ayrı-ayrı kateqoriyadan olan şəxslərə nəqliyyat xidmətlərinə görə güzəştlər təyin edərkən nəqliyyat müəssisələrinə kompensasiyaların ödənilməsi üçün maliyyə mənbələrini müəyyən edirlər.~~[4]
5. Vağzalların, stansiyaların, metropolitenin, limanların, aeroportların, körpülərin, piyada körpülərinin və tunellərin sərnişin platformalarının və əhaliyə nəqliyyat xidməti üzrə digər obyektlərin tikintisi dövlət büdcəsinin və yerli büdcələrin nəqliyyat müəssisələrini və başqa müəssisələrin vəsaitləri, həmçinin hüquqi və fiziki şəxslərin könüllü ianələri hesabına həyata keçirilir.
6. Xarici nəqliyyat müəssisələri tərəfindən Azərbaycan Respublikasının ərazisində tranzit daşımalarının həyata keçirilməsinə görə habelə su, avtomobil və dəmir yollarından, dövlət limanlarından, hava məkanında uçuşların idarə edilməsi və aeronaviqasiya xidmətlərindən istifadə edilməsinə görə Azərbaycan Respublikasının normativ-hüquqi aktları və beynəlxalq müqavilələri ilə müəyyən edilmiş qaydada və məbləğdə haqq alınır.

M a d d ə 9 . **Yüklərin, sərnişinlərin, baqajın və poçtun daşınması, nəqliyyat-ekspedisiya xidmətlərinin həyata keçirilməsi**

1. Yüklərin, sərnişinlərin, baqajın və poçtun daşınması və nəqliyyat-ekspedisiya xidmətlərinin həyata keçirilməsi qanunvericiliyə uyğun olaraq bağlanılmış müvafiq müqavilələr əsasında aparılır.
2. Qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdısa daşınma və nəqliyyat-ekspedisiya xidmətlərinin şərtləri həmçinin tərəflərin maddi məsuliyyəti onların bağladıqları müqavilə əsasında müəyyən edilir.
3. Müntəzəm daşımaların həyata keçirilməsi zərurəti yarandıqda, daşıyıcı və yükgöndərən*və ya onun səlahiyyətləndirdiyi digər şəxs* belə daşımaların təşkili haqqında müqavilələr bağlaya bilərlər.[5]

Yük daşımalarının təşkili haqqında müqaviləyə görə, digər öhdəliklərlə yanaşı daşıyıcı yükü müəyyən olunmuş müddətdə qəbul etməli, yükgöndərən isə həmin yükü daşımaya təqdim etməlidir.

Daşımaların təşkili haqqında müqavilədə həmçinin daşımaların həcmi müddəti, keyfiyyəti, nəqliyyat vasitələrinin verilməsi və daşıma üçün yüklərin təqdim olunması şərtləri daşımaların təşkilinin normativ hüquqi aktlarda nəzərdə tutulmamış digər şərtləri də müəyyən edilir.

M a d d ə 1 0 . **Birbaşa qarışıq daşımalar**

1. Dəmir yol, dəniz, daxili su, hava və avtomobil nəqliyyatı birbaşa qarışıq daşımalar sistemini təşkil edir.
2. Yüklərin, sərnişinlərin, baqajın və poçtun vahid nəqliyyat sənədi üzrə müxtəlif nəqliyyat növləri ilə daşınması (birbaşa qarışıq daşımalar) zamanı nəqliyyat müəssisələrinin qarşılıqlı münasibətləri, həmçinin bu daşımaların təşkili qaydası müvafiq nəqliyyat növləri müəssisələri arasında qanunvericiliyə uyğun olaraq bağlanmış birbaşa qarışıq daşımalar haqqında sazişlərlə müəyyən olunur.

M a d d ə 1 1 . **Daşıma haqqı**

1. Əgər qanunvericilikdə başqa hallar nəzərdə tutulmamışdırsa, yükün, sərnişinin, baqajın və poçtun daşınmasına görə haqq

müqavilə ilə (sazişlə, kontraktla) müəyyən edilir.

2. Dövlətin sosial-iqtisadi siyasətinin həyata keçirilməsini təmin etmək, yaxud nəqliyyat sahəsində inhisar fəaliyyətini məhdudlaşdırmaq və haqsız rəqabətin qarşısını almaq üçün nəqliyyat xidmətlərinin ayrı-ayrı növlərinə qanunvericiliklə müəyyən edilmiş qaydada tənzimlənən (vahid) tariflər tətbiq edilə bilər.

3. Müştərinin tələbi ilə yerinə yetirilən və mövcud tariflərdə nəzərdə tutulmamış iş və xidmətlərin haqqı onunla daşıyıcı arasında əldə olunan razılıq əsasında ödənilir.

4. Daşıma haqqının ödənilməsi ilə bağlı mübahisələr qanunvericiliyə və daşıma müqaviləsinə uyğun olaraq tənzimlənir.

M a d d ə  1 2 . **Yükün, sərnişinin və baqajın təyinat məntəqəsinə çatdırılmasının müddəti**

Daşıyıcı yükü, sərnişini və baqajı ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələr, nizamnamələr, daşıma qaydalarına dair normativ hüquqi aktlar və müqavilələr ilə müəyyən edilmiş müddətdə təyinat məntəqəsinə çatdırmalıdır.

M a d d ə  1 3 . **Sərnişinlərin hüquqları**

Sərnişinlər aşağıdakı əsas hüquqlardan istifadə edə bilərlər:

- sərnişin daşımaları üçün açılmış istənilən marşrut üzrə istənilən nəqliyyat növünə bilet almaq*(gediş haqqı ödəniş aləti ilə ödənildiyi hallar istisna olmaqla)*;[6]
- alınmış biletə uyğun yerlə təmin edilmək*, yaxud gediş haqqı ödəniş aləti vasitəsilə ödənildikdə, boş yeri tutmaq və gedişi həyata keçirmək*;[7]
- *ödəniş aləti əldə etmək və ona vəsait yükləmək;*[8]
- müvafiq normativ hüquqi aktlarla müəyyən edilmiş yaş həddində olan uşaqları pulsuz və ya digər şərtlərlə aparmaq;
- müəyyən edilmiş normalar həddində özləri ilə pulsuz əl yükü aparmaq;
- tarifə uyğun daşımaya baqaj təhvil vermək;
- üzrsüz səbəbdən daşımanın göstərilən vaxtdan gec başa çatdırılmasına görə kompensasiya almaq;
- daşıma başlayana qədər bileti təhvil verib, daşımanı həyata keçirən nəqliyyat müəssisəsindən (daşıyıcıdan) ödənilmiş məbləği geri almaq;
- sığorta olunanın "İcbari sığortalar haqqında" Azərbaycan Respublikasının Qanununda və Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmiş hüquqlarından istifadə etmək.[9]

Daşıyıcının qaytardığı məbləğin miqdarı, qaytarma və kompensasiya verilməsi qaydaları ayrı-ayrı nəqliyyat növləri üzrə normativ hüquqi aktlarla müəyyən edilir.

Daşımanı davam etdirməkdən imtina edən daşıyıcı sərnişinin təyinat məntəqəsinə çatdırılmasını öz hesabına təmin etməli, yaxud müqavilənin pozulması nəticəsində sərnişinə vurulmuş bütün zərəri ödəməlidir.

M a d d ə  1 4 . **Tranzit yük və sərnişin daşımaları**

Azərbaycan Respublikasının ərazisindən tranzit yük və sərnişin daşımaları: dəmir yol, hava, avtomobil, dəniz, daxili su nəqliyyatı ilə Azərbaycan Respublikasının qanunvericiliyinə, beynəlxalq müqavilələrinə uyğun beynəlxalq (dövlətlərarası) daşımalar üçün açılmış marşrutlar (yollar, trasslar və su yolları) üzrə həyata keçirilir.

## I V  f ə s i l

## NƏQLİYYATDA TƏHLÜKƏSİZLİK VƏ MƏSULİYYƏT

M a d d ə  1 5 . **Nəqliyyat vasitələrini idarəetmə hüququ**

1. Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq ixtisas tələblərinə və sağlamlıq vəziyyəti müvafiq normalara cavab verən fiziki şəxsə verilir. Nəqliyyat vasitəsini idarəetmə hüququ müvafiq normativ hüquqi aktlarla müəyyən olunmuş qaydada və formada verilmiş sənədlə təsdiq edilir.

2. Nəqliyyat vasitəsini idarəetmə üzrə ixtisas tələbləri və sürücünün sağlamlıq vəziyyətinə dair tibbi normalar müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

M a d d ə  1 6 . **Daşıyıcının məsuliyyəti**

1. Daşıyıcı sərnişinin təhlükəsizliyini, ona lazımi xidmət şəraitinin yaradılmasını, təhvil aldığı baqajın, yükün vaxtında daşınmasını və qorunmasını təmin etməlidir.

2. Daşımaların yerinə yetirilməsi ilə əlaqədar öz vəzifələrini (öhdəliklərin) icra etmədikdə daşıyıcı bu Qanunla, ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrlə, nizamnamələrlə və digər normativ hüquqi aktlarla, həmçinin daşıma müqaviləsi ilə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır.

Qanunvericilikdə nəzərdə tutulmamış hallarda, daşıyıcının maddi məsuliyyətinin məhdudlaşdırılması və ya götürülməsi haqqında müştərilərlə əldə etdiyi razılaşmalar etibarsız hesab edilir.

3. Şəhər və şəhərətrafı daşımalar istisna olmaqla sərnişin daşımaları üzrə elan olunmuş reyslərin cədvəlində və ya müqavilədə müəyyən edilmiş reyslərin təxirə salınması və ya pozulması daşıyıcının təqsiri üzündən baş veribsə, o müvafiq normativ hüquqi aktlarda, ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrdə, nizamnamələrdə, habelə müqavilədə müəyyən edilmiş qaydada sərnişin qarşısında maddi məsuliyyət daşıyır.

Sərnişin daşımalarının pozulması qarşısıalınmaz qüvvənin təsiri nəticəsində, sərnişinlərin həyat və sağlamlığına təhlükə yaranması, yaxud daşıyıcıdan asılı olmayan digər səbəblərdən baş verdiyi sübut edilərsə, daşıyıcı maddi məsuliyyət daşımaqdan azad olunur.

4. Nəqliyyat vasitəsinin yola düşməsi ləngidildiyinə görə sərnişin daşımadan imtina edərsə, daşıyıcı sərnişinin ödədiyi gediş haqqını ona tam həcmdə qaytarmalıdır.

5. Sərnişin daşımaları üzrə reyslərin 8 saat və ondan artıq müddətdə gecikdirilməsi zamanı daşıyıcı öz hesabına sərnişinləri mehmanxanada yerlə və yeməklə təmin etməlidir.

6. Sərnişinin tələbi ilə daşımanın gecikdirilməsi, yaxud reysin dəyişdirilməsi barədə ona rəsmi sənəd verilir və ya biletdə müvafiq qeydiyyat aparılır.

7. Qanunvericilikdə və ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrdə, nizamnamələrdə daşıyıcının məsuliyyətinin başqa növləri

də nəzərdə tutula bilər.

M a d d ə  1 7 . **Nəqliyyat vasitələrinin verilməməsinə görə daşıyıcının və verilmiş nəqliyyat vasitələrindən istifadə edilməməsinə görə müştərinin maddi məsuliyyəti**

Əldə olunmuş daşıma müqaviləsinə (sifarişə) zidd olaraq daşıyıcı yükgöndərənə yükün daşınması üçün nəqliyyat vasitəsi vermədikdə, yaxud vaxtında vermədikdə, müştəri isə yük daşımaları üçün verilmiş nəqliyyat vasitəsindən istifadə etmədikdə, yaxud vaxtında istifadə etmədikdə, ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrlə, nizamnamələrlə, həmçinin daşıma müqaviləsi ilə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyırlar.

Daşıyıcı və ya yükgöndərən (yükalan) müvafiq olaraq nəqliyyat vasitələrinin verilməməsinin, yaxud vaxtında verilməməsinin, nəqliyyat vasitələrindən istifadə edilməməsinin, yaxud vaxtında istifadə edilməməsinin qarşısıalınmaz qüvvənin təsiri və ya müvafiq normativ hüquqi aktlarla nəzərdə tutulan qaydada müəyyən edilmiş istiqamətlərdə yük daşımalarının dayandırılması, yaxud məhdudlaşdırılması nəticəsində, habelə daşıyıcıdan və ya yükgöndərəndən (yükalandan) asılı olmayan sair səbəblərdən baş verdiyini sübut edərlərsə maddi məsuliyyətdən azad olunurlar.

M a d d ə  1 8 . **Yükün və ya baqajın itirilməsi, əskik çıxması və zədələnməsinə (xarab olmasına) görə daşıyıcının məsuliyyəti**

1. Daşıyıcı müştəridən yükü və ya baqajı daşımaya qəbul etdiyi andan onu yükalana (sərnişinə) təhvil verənə qədər həmin yükün və ya baqajın qorunmasını təmin etməlidir.

2. Yükün və ya baqajın itməsinin, əskik çıxmasının və zədələnməsinin (xarab olmasının) daşıyıcının təqsiri olmadan (Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda daşıyıcıdan asılı olmayan səbəblərdən) baş verdiyi sübut edilmədikdə, daşıyıcı müvafiq normativ hüquqi aktlarda, ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrdə, nizamnamələrdə və ya müqavilədə müəyyən edilmiş qaydada məsuliyyət daşıyır. [10]

3. Müvafiq normativ hüquqi aktlarda, ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrdə, nizamnamələrdə və ya müqavilədə başqa qayda nəzərdə tutulmadıqda, daşıyıcı yükün və ya baqajın daşınması zamanı müştəriyə vurulmuş zərəri aşağıdakı miqdarlarda ödəyir:

- yük və ya baqaj itirildikdə, yaxud əskik çıxdıqda - müvafiq olaraq itirilmiş, yaxud əskik çıxmış yükün və ya baqajın dəyəri miqdarında;
- yük və ya baqaj zədələndikdə - onun dəyərinin azaldığı məbləğ miqdarında, zədələnmiş (xarab olmuş) yükü və ya baqajı bərpa etmək mümkün olmadıqda isə - onun tam dəyəri miqdarında;
- qiyməti elan olunmaqla daşınmaya təhvil verilmiş yük və ya baqaj itirildikdə - həmin yükün və ya baqajın elan olunmuş qiyməti miqdarında. Daşıyıcı həmin yükün və ya baqajın həqiqi dəyərinin elan olunmuş qiymətindən aşağı olduğunu sübut etdikdə isə yükün və ya baqajın həqiqi dəyəri miqdarında.

Yuxarıda göstərilən hallarda mübahisə yarandıqda yükün və ya baqajın həqiqi dəyərinin müəyyən edilməsi üçün onların daşıma müqaviləsində göstərilmiş dəyəri, yükgöndərənin daşıma haqqının ödənilməsinə dair qaimə sənədi əsas götürülə bilər. Daşıma müqaviləsində yükün və ya baqajın dəyəri göstərilmədikdə, habelə yükə dair hesablaşmalar bank vasitəsi ilə həyata keçirilmədikdə isə müqayisə edilə bilən analoji malların zərərin ödənildiyi mövcud tarixə olan dəyəri əsas kimi istifadə oluna bilər.

4. Daşıyıcı yükün və ya baqajın itirilməsi, əskik çıxması və ya zədələnməsi (xarab olması) ilə əlaqədar müəyyən edilmiş zərəri ödəməklə yanaşı, həmin yükün və ya baqajın daşınmasına görə alınmış, daşıma haqqını da (əgər bu haqq yükün və ya baqajın dəyərinə daxil deyilsə) müştəriyə qaytarır.

5. Daşıyıcının və ya müştərinin maddi məsuliyyətə cəlb edilməsi üçün əsas ola bilən hallar müəyyən edilmiş qaydada tərtib olunan sənədlərlə (kommersiya aktı, ümumi formalı akt və ya i. a.) təsdiq olunur və daşıma ilə əlaqədar mübahisələrin həlli üçün məhkəməyə təqdim oluna bilər.

M a d d ə  1 9 . **Yüklərin daşınması üzrə tələb və iddialar**

1. Daşıyıcıya qarşı daşımadan törəyən iddianın məhkəməyə verilməsindən əvvəl, qanunvericilikdə ayrı-ayrı nəqliyyat növləri üzrə məcəllələrdə, nizamnamələrdə, digər normativ hüquqi aktlarda nəzərdə tutulmuş qaydada və müddətdə həmin daşıyıcıya tələb təqdim oluna bilər. [11]

2. Daşıyıcı təqdim olunan tələbə müəyyən edilmiş müddətdə baxıb, onun tamamilə və ya qismən təmin edilməsi və ya rədd edilməsi barədə tələbkara xəbər verməlidir.

*3. Nəqliyyat-ekspedisiya xidmətləri ilə əlaqədar ekspeditora qarşı yaranan tələblər üzrə iddia qaldırılması Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 861.2-ci maddəsinə uyğun həyata keçirilir.* **[12]**

M a d d ə  2 0 . **Sərnişinin səhhətinə vurulmuş ziyana və ya onun ölümünə görə daşıyıcının məsuliyyəti**

Əgər qanunvericilikdə daha yüksək məsuliyyət nəzərdə tutulmayıbsa, daşıma zamanı sərnişinin səhhətinə vurulmuş ziyanın və ya onun ölümünün qarşısıalınmaz qüvvə və ya sərnişinin öz qəsdi nəticəsində törədilməsi sübut edilmədikdə, daşıyıcı qanunvericilikdə müəyyən edilmiş qaydada maddi məsuliyyət daşıyır.

M a d d ə  2 1 . **Nəqliyyatda yüklərin və obyektlərin mühafizəsi**

1. Yüklərin və nəqliyyat obyektlərinin mühafizəsi, həmçinin dəmiryolu, dəniz, boru kəməri və hava nəqliyyatında yanğına qarşı profilaktik tədbirlərin (işlərin) keçirilməsi və yanğınların nəticələrinin ləğv edilməsi müəyyən edilmiş qaydada nəqliyyat müəssisəsi və xüsusi hərbiləşdirilmiş mühafizə xidmətləri tərəfindən həyata keçirilir.

Hərbiləşdirilmiş mühafizə xidmətinin əməkdaşları qanunvericilikdə müəyyən edilmiş qaydada odlu silah və xüsusi vasitələrlə təmin olunurlar.

Silahın və xüsusi vasitələrin tətbiq edilməsi qaydaları müvafiq normativ hüquqi aktlarla müəyyən edilir.

2. Mühüm nəqliyyat obyektlərinin və xüsusi yüklərin mühafizəsi müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunmuş qaydada və siyahı üzrə həyata keçirilir.

3. Siyahısı müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq edilən təhlükəli və qiymətli yüklərin yol boyu mühafizəsini və müşayiətini yükgöndərənlər (yükalanlar) təmin edirlər.

M a d d ə  2 2 . **Nəqliyyatda təhlükəsizliyin və ekoloji tələblərin təmin edilməsi**

1. Nəqliyyat müəssisələri və daşıyıcılar sərnişinlərin həyat, səhhət və əmlakının təhlükəsizliyini, nəqliyyat vasitələrinin hərəkətlərinin təhlükəsizliyini, həmçinin ətraf mühitin mühafizəsini təmin etməyə borcludurlar.

2. Nəqliyyat vasitələri, yollar, habelə nəqliyyatın işini təmin edən müvafiq texniki vasitələr (işlər, xidmətlər) dövlət standartları ilə müəyyən edilmiş insanın həyatı, səhhəti və əmlakının təhlükəsizliyinə, əməyin mühafizəsinə və ekoloji təhlükəsizliyə dair məcburi tələblərə uyğun olmalıdırlar.

3. Partlayıcı və pirotexniki materialları, tezalışan, radioaktiv, zəhərli və digər təhlükəli yükləri göndərən və alan müştərilər onların daşınma təhlükəsizliyinə zəmanət verməli, yüklərin daşınması zamanı baş vermiş qəza hadisəsi barədə xəbərdarlıq etmək, həmçinin qəzanın nəticələrini ləğv etmək üçün lazımi vasitələrə və işçi qüvvəyə malik olmalıdırlar. Təhlükəli yüklərin daşınması qaydalarını müvafiq icra hakimiyyəti orqanı müəyyən edir. [13]

4. Üzərində nəqliyyat vasitələrinin hərəkəti və yükləmə-boşaltma işləri həyata keçirilən nəqliyyat obyektləri (stansiya, liman, avtovağzal, aeroport, avtonəqliyyat terminalı, su yolları və dəmir yol xətləri) ərazilərinin hissələri yüksək təhlükəli zonalar sayılır. Belə zonalarda kənar şəxslərin olması qadağandır. Yüksək təhlükəli zonada olmanın və orada işlərin aparılmasının qaydaları müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir.

5. Nəqliyyatın fəaliyyəti prosesində ətraf mühitin və əhalinin təhlükəsizliyinə zəmanət verən atmosfer havasının, torpaqların, suyun, bitki və heyvanlar aləminin çirklənmədən qorunmasını, təbii ehtiyatların səmərəli istifadəsini və istehsalını təmin edən ekoloji norma və qaydalara əməl olunmalıdır.

Xarici ölkələrdə radioaktiv və toksik tullantıların saxlanmaq və basdırılmaq üçün ölkə ərazisinə daşınması və ölkə ərazisindən tranzit yolu ilə aparılması qadağandır. [14]

6. Faydalı qazıntıların olduğu meydançalarda nəqliyyat müəssisələrinin layihələndirilməsi və tikintisi, eləcə də yeraltı qurğuların yerləşdirilməsi qadağandır. Müstəsna hallarda, buna müvafiq icra hakimiyyəti orqanının icazəsi ilə yol verilir.

7. Nəqliyyat müəssisələri (daşıyıcılar) ətraf mühitin, hava hövzəsinin, su anbarlarının, torpaqların mühafizəsi və təbii ehtiyatların səmərəli istifadəsi üzrə lazımi tədbirləri həyata keçirməyə borcludurlar. Ətraf mühitə vurulmuş ziyana görə nəqliyyat müəssisələri (daşıyıcılar) qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyət daşıyırlar.

M a d d ə  2 3 . **Nəqliyyatda sığorta**

1. Qanunla və ya beynəlxalq müqavilə ilə başqa hallar nəzərdə tutulmayıbsa, nəqliyyat sahəsində yüklərin~~, sərnişinlərin~~ və nəqliyyat vasitələrinin sığortası ~~qanunvericiliyə uyğun olaraq~~ könüllü formada həyata keçirilir. [15]

2. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin sığortası və sərnişin daşımaları xidmətini həyata keçirən hava, su, dəmiryolu və avtomobil nəqliyyatı vasitələri ilə daşınan sərnişinlərin (nəqliyyat vasitələri ilə şəhərdaxili və ya qəsəbədaxili daşınan sərnişinlər istisna olmaqla) fərdi qəza sığortası “İcbari sığortalar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq icbari qaydada həyata keçirilir. Bu tələb yerinə yetirildiyi halda müvafiq nəqliyyat vasitələrinin istismarına icazə verilir. [16]

~~3. Beynəlxalq daşımalar üzrə məcburi sığorta müvafiq beynəlxalq müqavilələrə və (və ya) qanunauyğun olaraq həyata keçirilir~~. [17]

M a d d ə  2 4 . **Nəqliyyatın fəaliyyətini tənzimləyən norma və qaydaların pozulmasına görə məsuliyyət**

Nəqliyyatın fəaliyyətini tənzimləyən norma və qaydaların pozulmasına görə təqsirkar şəxslərMülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda məsuliyyət daşıyırlar. [18]

## V f ə s i l

## YEKUN MÜDDƏALAR

M a d d ə  2 5 . **Nəqliyyatda nəzarət**

1. Nəqliyyat vasitələrinin təhlükəsiz hərəkətinin təmin edilməsinə nəzarət müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilmiş qaydada həyata keçirilir.

2. Nəqliyyat vasitələrinə texniki baxış yalnız qanunvericilikdə müəyyən edilmiş hallarda həyata keçirilir.

M a d d ə  2 6 . **Nəqliyyat sahəsində beynəlxalq əməkdaşlıq**

Nəqliyyat sahəsində beynəlxalq əməkdaşlıq dövlətlərarası, hökumətlərarası~~, idarələrarası~~ müqavilələr, (sazişlər, kontraktlar), habelə qanunvericiliyə uyğun olaraq nəqliyyat müəssisələri və daşıyıcıların xarici hüquqi və fiziki şəxslərlə birbaşa bağladıqları müqavilələr (sazişlər, kontraktlar) əsasında həyata keçirilir. [19]

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 11 iyun 1999-cu il
683-IQ

## İSTİFADƏ OLUNMUŞ MƏNBƏ SƏNƏDLƏRİNİN SİYAHISI


1. 16 may 2000-ci il tarixli **879-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 7, maddə 486**)

2. 15 noyabr 2001-ci il tarixli **214-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 12, maddə 731**)

3. 23 aprel 2002-ci il tarixli **311-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu ( **Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 241**)

**4.** 2 oktyabr 2008-ci il tarixli **695-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 15 noyabr 2008-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 957)**

**5.** 24 iyun 2011-ci il tarixli **171-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 30 iyul 2011-ci il, 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 7, maddə 610)**

**6.** 4 aprel 2014-cü il tarixli **929-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 24 aprel 2014-cü il, 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 335)**

**7.** 31 oktyabr 2017-ci il tarixli **844-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 dekabr 2017-ci il, 275 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab maddə 2212)**

**8.** 3 may 2019-cu il tarixli **1579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 14 iyun 2019-cu il, 128 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 988)**

**9.** 24 aprel 2020-ci il tarixli **60-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 iyun 2020-ci il, 104 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 663)**

**QANUNA EDİLMİŞ DƏYİŞİKLİK VƏ ƏLAVƏLƏRİN SİYAHISI**

---

[1] 24 aprel 2020-ci il tarixli **60-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 iyun 2020-ci il, 104 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 663)** ilə 1-ci maddənin dördüncü abzasında “**ödəniş və ya muzdla** ” sözləri “**haqq müqabilində**” sözləri ilə və “**hüququ və ya başqa qanuni əsaslarla** ” sözləri “**və ya istifadə hüququ ilə** ” sözləri ilə əvəz edilmişdir.

[2] 3 may 2019-cu il tarixli **1579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 14 iyun 2019-cu il, 128 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 988)** ilə 4-cü maddənin 2-ci hissəsinə “**Su Məcəlləsi**” sözlərindən sonra “**, “Ətraf mühitin mühafizəsi haqqında” və “Ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında” Azərbaycan Respublikasının qanunları**” sözləri əlavə edilmişdir.

[3] 3 may 2019-cu il tarixli **1579-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 14 iyun 2019-cu il, 128 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019-cu il, 6, maddə 988)** ilə 6-cı maddəyə yeni məzmunda ikinci hissə əlavə edilmişdir.

[4] 15 noyabr 2001-ci il tarixli **214-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, 12, maddə 731**) ilə 8-ci maddənin dördüncü hissəsi çıxarılmışdır.

[5] 24 aprel 2020-ci il tarixli **60-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 iyun 2020-ci il, 104 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 663)** ilə 9-cu maddənin 3-cü hissəsinin birinci abzasına “**yükgöndərən**” sözündən sonra **“və ya onun səlahiyyətləndirdiyi digər şəxs”** sözləri əlavə edilmişdir.

[6] 31 oktyabr 2017-ci il tarixli **844-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 dekabr 2017-ci il, 275 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab maddə 2212)** ilə 13-cü maddənin birinci hissəsinin ikinci abzasına “**almaq**” sözündən sonra “**(gediş haqqı ödəniş aləti ilə ödənildiyi hallar istisna olmaqla)** ” sözləri əlavə edilmişdir.

[7] 31 oktyabr 2017-ci il tarixli **844-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 dekabr 2017-ci il, 275 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 712, I kitab maddə 2212)** ilə 13-cü maddənin üçüncü abzasına “**təmin edilmək**” sözlərindən sonra “**, yaxud gediş haqqı ödəniş aləti vasitəsilə ödənildikdə, boş yeri tutmaq və gedişi həyata keçirmək** ” sözləri əlavə edilmişdir.

[8] 31 oktyabr 2017-ci il tarixli **844-VQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 13 dekabr 2017-ci il, 275 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017-ci il, 12, I kitab maddə 2212)** ilə 13-cü maddənin birinci hissəsinin dördüncü-doqquzuncu abzasları müvafiq olaraq beşinci-onuncu abzaslar hesab edilmişdir və yeni məzmunda dördüncü abzas əlavə edilmişdir.

[9] 4 aprel 2014-cü il tarixli **929-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Respublika” qəzeti, 24 aprel 2014-cü il, 83, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 335)** ilə 13-cü maddənin birinci hissəsinin səkkizinci abzasının sonunda nöqtə işarəsi nöqtəli vergül işarəsi ilə əvəz edilmişdir və yeni məzmunda doqquzuncu abzas əlavə edilmişdir.

[10] 23 aprel 2002-ci il tarixli **311-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 241**) ilə 18-ci maddənin 2-ci bəndində "**daşıyıcıdan**" sözündən əvvəl "**Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyən edilmiş hallarda**" sözləri əlavə edilmişdir.

[11] 23 aprel 2002-ci il tarixli **311-IIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002-ci il, 5, maddə 241**) ilə 19-cu maddənin 1-ci bəndində "**olunmalıdır**" sözü "**oluna bilər**" sözləri ilə əvəz edilmişdir.

[12] 24 aprel 2020-ci il tarixli **60-VIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 3 iyun 2020-ci il, 104 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020-ci il, 6, maddə 663)** ilə 19-cu maddəyə yeni məzmunda 3-cü hissə əlavə edilmişdir.

[13] 2 oktyabr 2008-ci il tarixli **695-IIIQD** nömrəli Azərbaycan Respublikasının Qanunu **(“Azərbaycan” qəzeti, 15 noyabr 2008-ci il, 256, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2008-ci il, 11, maddə 957)** ilə 22-ci maddəsinin 3-cü hissəsində **"Partlayıcı"** sözündən sonra **"və pirotexniki materialları"** sözləri əlavə edilmişdir.

[14] 16 may 2000-ci il tarixli **879-IQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000-ci il, 7, maddə 486**) ilə 22-ci maddənin 5-ci bəndinin ikinci hissəsinə “**ölkə ərazisinə daşınması**” sözlərindən sonra “**və ölkə ərazisindən**

**tranzit yolu ilə aparılması**” sözləri əlavə edilmişdir.

[15] 4 aprel 2014-cü il tarixli **929-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 24 aprel 2014-cü il, 83 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 335**) ilə 23-cü maddənin 1-ci hissəsindən “, **sərnişinlərin**” sözü və “**qanunvericiliyə uyğun olaraq**” sözləri çıxarılmışdır.

[16] 4 aprel 2014-cü il tarixli **929-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 24 aprel 2014-cü il, 83 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 335**) ilə 23-cü maddənin 2-ci hissəsi yeni redaksiyada verilmişdir.

Əvvəlki redaksiyada deyilirdi:

~~2. Qanunla nəzərdə tutulmuş hallarda nəqliyyat vasitələrinin istismarına onların sahiblərinin (daşıyıcıların) mülki məsuliyyətinin məcburi sığorta olunması şərti ilə icazə verilir.~~

[17] 4 aprel 2014-cü il tarixli **929-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 24 aprel 2014-cü il, 83 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 335**) ilə 23-cü maddənin 3-cü hissəsi ləğv edilmişdir.

[18] 4 aprel 2014-cü il tarixli **929-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Respublika” qəzeti, 24 aprel 2014-cü il, 83 , Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014-cü il, 04, maddə 335**) ilə 24-cü maddədə “**qanunvericilikdə müəyyən edilmiş qaydada**” sözləri “**Mülki, İnzibati Xətalar və Cinayət məcəllələrində nəzərdə tutulmuş hallarda** ” sözləri ilə əvəz edilmişdir.

[19] 24 iyun 2011-ci il tarixli **171-IVQD** nömrəli Azərbaycan Respublikasının Qanunu (**“Azərbaycan” qəzeti, 30 iyul 2011-ci il, 165, Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2011-ci il, 7, maddə 610**) ilə 26-cı maddəsindən “ **, idarələrarası**” sözü çıxarılmışdır.